

## Polad Bülbüloğlunun həyat və fəaliyyətinin əsas tarixləri

| | |
|---|---|
| **1945-ci il, 4 fevral** | Polad Murtuza oğlu Məmmədov Bakı şəhərində Azərbaycanın Xalq artisti Bülbülün (Murtuza Məmmədov) ailəsində anadan olub. Özünə soyad kimi atasının ləqəbini - Bülbül götürmüşdür. |
| **1966-cı ildə** | "İstintaq davam edir" filminə musiqi bəstələmişdir. Bu Polad Bülbüloğlunun kinoda ilk işidir. |
| **1968-ci ildə** | Azərbaycan Dövlət Konservatoriyasında Qara Qarayevin sinfini bitirmişdir. |
| **1969-cu ildə** | Polad Bülbüloğluna Arif Babayevin çəkdiyi "Uşaqlığın son gecəsi" filminə bəstələdiyi musiqiyə görə Kiyevdə Zaqafqaziya və Ukrayna respublikalarının "Prometey-69" III zona kinofestivalında ən yaxşı musiqiyə görə Xüsusi Diplom verilmişdir. |
| **1970-ci ildə** | "Abşeron ritmləri" tammetirajlı musiqili televiziya filmininə (rejissor Eldar Quliyev, ssenari müəllifi İmran Qasımov, operator Rasim Ocaqov) musiqi bəstələmişdir. |
| **1971-ci ildə** | "Oxuyur Müslüm Maqomayev" filminin musiqisini bəstələmişdir. |
| **1972-ci ildə** | Quruluşçu rejissor Eldar Quliyev olan, dənizdə batan uşaqları xilas edərkən özü də həlak olan Bakı məktəblisi Tofiq Hüseynova ithaf edilən "Var olun, qızlar..." filminə musiqi bəstələmişdir. |
| **1973-cü ildə** | "Azərbaycan SSR əməkdar artisti" fəxri adı verilmişdir. |
| | "Səmt küləyi" (ssenari müəllifi : Yusif Səmədoğlu, İrji Marek, Lüdviq Toman; quruluşçu rejissor : Eldar Quliyev) tarixi-inqilabi filminin musiqisini yazmışdır. |
| **1975-ci ildə** | "Aşıqlar" vokal-instrumental ansamblı ilə birgə müxtəlif ölkələrin səhnələrində uğurla çıxış edib. |
| **1976-cı ildə** | "Ürək... Ürək..." (ssenari müəllifi: Rüstəm İbrahimbəyov, quruluşçu rejissor: Eldar Quliyev) filminin musiqisini yazməşdır. |
| **1977-ci ildə** | "Sevinc buxtası" (ssenari müəllifi: Georgi Mdivani, Eldar Quliyev) filminin musiqisini bəstələmişdir. |
| **1979-cu ildə** | "Babək" tammetrajlı bədii filminə (rejissor Eldar Quliyev) musiqi bəstələmişdir. |

| | |
|---|---|
| | "Mən mahnı qoşuram" filminə musiqi bəstələmiş, mahnılar ifa etmişdir. |
| **1980-ci ildə** | "Yol əhvalatı" filminin (ssenari müəllifi: Asim Cəlilov, quruluşçu rejissor Teymur Bəkirzadə) musiqisini bəstələmişdir. |
| **1981-ci ildə** | "Nəğməkar torpaq" filmində (ssenari müəllifi: Vaqif Səmədoğlu və Ruslan Şahmalıyev, quruluşçu rejissoru Ruslan Şahmalıyev) digər bəstəkarlarla yanaşı onun da musiqilərindən istifadə edilmişdir. |
| **1982-cü ildə** | "Azərbaycan SSR xalq artisti" fəxri adını almışdır. |
| | "İşgüzar səfər" filminin musiqisini bəstələmişdir. |
| | "Poladın mahnıları" filmi (ssenari müəllifi rejissor : Tofiq Mirzəyev, operator: Nəriman Şıxəliyev, səs rejissoru: Ruhəngiz Qasımova) çəkilmişdir. |
| **1987-ci ildə** | Azərbaycan Dövlət Filarmoniyasının direktoru və bədii rəhbəri vəzifələrində çalışıb. |
| **1988-ci ildə** | Azərbaycan Sovet Sosialist Respublikasının mədəniyyət naziri təyin edilib (1988-1991). |
| **1991-ci il, 18 oktyabr** | Azərbaycan Respublikasının mədəniyyət naziri təyin edilib. (18 oktyabr 1991-30 yanvar 2006) |
| **1994-cü ildə** | TÜRKSOY-un sədri seçilib. |
| **1995-ci ildə** | Polad Bülbüloğlunun 50 illik yubileyinə Tofiq İmirli tərəfindən "Salnamə" Sənədli Filmlər Studiyasında istehsal olunmuş Zirvəyə gedən yol adlı qısametrajlı sənədli film həsr olunmuşdur. |
| **1995-ci il, 24 noyabr** | Azərbaycanın I çağırış parlament seçkilərində 45 saylı Şuşa–Cəbrayıl –Xocavənd seçki dairəsindən qələbə qazanaraq Milli Məclisə deputat seçilib (24 noyabr 1995-24 noyabr 2000). |
| **2002-ci ildə** | Vətənpərvərlik mövzusunda rejissor Elçin Axundovun çəkdiyi "Cavanşir" cizgi filmində Polad Bülbüloğlunun kino musiqilərindən istifadə olunub. |
| **2005-cü ildə** | "İstiqlal" ordeni ilə təltif edilib. |
| | "Dədə Qorqud" dastanının motivləri əsasında yaratdığı "Eşq və ölüm" baleti ilk dəfə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında Vyana Balet Akademiyasının professoru, baletmeyster Vakil Usmanov tərəfindən səhnəyə qoyulub. |
| **2006-cı il, 30 yanvar** | Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Azərbaycanın Rusiya Federasiyasında fövqəladə və səlahiyyətli səfiri təyin edilib. |
| **2008-ci ildə** | Azərbaycan tarixinin ən mürəkkəb və çətin dövrünü əhatə edən "Hökmdarın taleyi" filminin bəstəkarıdır. |

**2009-cu ildə** "Rusiya və Azərbaycan xalqları arasında dostluğun möhkəmlənməsinə, millətlərarası sülhün, razılığın qorunub-saxlanmasına görə" xüsusi nominasiyasında "Müqəddəs Knyaz Aleksandr Nevski" mükafatına layiq görülüb.

O, Azərbaycanın ərazi bütövlüyü uğrunda apardığı mübarizəni beynəlxalq ictimaiyyətə dürüst təqdim etdiyinə, diplomatiyaya qoyulan təbii məhdudiyyətlərə baxmayaraq verdiyi bəyanatlar və müsahibələrdə ölkəmizin ədalətli mövqeyinin güzəştsiz olduğunu aşıladığına, ictimai düşüncədə mövcud olan anlaşılmazlıq və ziddiyyətlərə, cəmiyyətin hələ hər hansı riskli addıma hazır olmamasına baxmayaraq Dağlıq Qarabağa etdiyi səfərlərdə, münaqişəyə səbəb olmuş tərəfin — ermənilərin düz içərisində Azərbaycanın maraqlarına uyğun apardığı işə, yaratdığı "Məhəbbət və ölüm" baletinin Rusiya Federasiyasının paytaxtı Moskva şəhərində tamaşaya qoyulması ilə böyük mədəniyyətimizə verdiyi samballı töhfəyə, ölkəmizin imici üçün göstərdiyi səylərdə mənəviyyət və vətənpərvərlik nəzər nöqtəsindən çıxış etdiyinə görə Azərbaycanda "2009-cu İlin Adamı" elan edilib.

**2012-ci ildə** Müharibə mövzusunda Aqil Abbasın eyniadlı romanı əsasında rejissor Elxan Cəfərovun ekranlaşdırdığı “Dolu” tammetrajlı bədii filminin musiqisini bəstələmişdir.

**2013-cü ildə** “Qorxma, mən səninləyəm!” müğənni və bəstəkar Polad Bülbüloğlunun aktyor kimi kinoda ilk işidir.

**2015-ci il, 3 fevral** “Şərəf” ordeni ilə təltif edilib.

Film faşizm üzərində qələbənin 70 illiyinə həsr olunmuş “Yarımçıq xatirələr” filminin musiqisini yazmışdır.

25 fevral tarixində Dağıstan Respublikasının “Əməkdar incəsənət xadimi” fəxri adı verilib.

**2016-cı il, 18 may** Məşhur heykəltaraş və rəssam Zurab Seretellinin "Mənim müasirlərim" adlı heykəllər silsiləsi çərçivəsində Moskvada Polad Bülbüloğlunun abidəsinin açılışı olub.

**2017-ci ildə** "Rus ifaçılıq sənəti" (rus. Русское исполнительное искусство) İctimai Fondunun 25 illiyi medalına layiq görülüb.

“Türkmənistan Respublikasının xalq artisti” fəxri adına layiq görülmüşdür.

**2019-cu ilin iyulunda** Polad Bülbüloğlu 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif olunub.

**2020-ci ildə** Azərbaycan mədəniyyətinin inkişafında böyük xidmətlərinə və uzunmüddətli səmərəli ictimai-siyasi fəaliyyətinə görə Azərbaycanın ən ali ordeni olan "Heydər Əliyev" ordeni ilə təltif edilib.

| | |
|---|---|
| **2024-ci il, 1 sentyabr** | Azərbaycanın VII çağırış növbədənkənar parlament seçkilərində qələbə qazanaraq Qarabağ bölgəsindən Milli Məclisə deputat seçilib. |
| **2024-cü il, 14 sentyabr** | Polad Bülbüloğlu Ermitaj Mükafatının laureatı olub. |
| **2024-cü il, 17 sentyabr** | Başqırdıstanın Xalq artisti fəxri adı verilib. |
| **2024-cü il, 23 sentyabr** | Prezidentin sərəncamı ilə Azərbaycanın Rusiya Federasiyasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılıb. |
| | Yeddinci çağırış Milli Məclisin bu gün keçirilən ilk plenar iclasında komitələrə sədr seçkisi keçirilib. Polad Bülbüloğlu Milli Məclisin Mədəniyyət komitəsinin sədri seçilib. |
| **2024-cü il, 8 oktyabr** | Azərbaycan - Rusiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri seçilib. |